***ZƏMANƏT***

Nəsillər dəyişir, illər dəyişir,
Ölkəni hünərli oğullar bəzər.
Ölkənin başına təzə keçənlər
Nəhəng addımlarla Heydərə bənzər.

İşıqlı səhəri, nurlu gündüzü
Bəzəyər al-əlvan neçə gül-çiçək.
Yurdun sükanın, kimlər olsa da
Heydərdən zəmanət alıb gələcək.

Heydərdən zəmanət – bu da hünərdir
Sükanı düz tutmaq çətin olsa da
Hardasa çətinə düşərsə Vətən
Şəksiz ki, Heydəri salacaq yada.

Onun zəmanəti köhnələ bilməz.
Zəhmi -zəmanəti, gücü qətidir.
Xilaskar oğullar mütləq deyəcək:
- Əlimdə Heydərin zəmanətidir.

***Məstan Günər***
***Bir oğul göstərin Heydərə bənzər. – B.: Nağıl evi, 2009. – S.113.***